# RƏQƏMSALLAŞMA VƏ YAŞIL İQTİSADİYYAT - HEYDƏR ƏLİYEVİN İNNOVASİYA ƏSASLI SİYASƏTİNİN UĞURLU DAVAMI KİMİ

**Səbinə Əsədova**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*
*sabina_esedova@mail.ru*

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişi Azərbaycan iqtisadiyyatının yeni inkişaf mərhələsinə keçidi, ölkədə demokratik dövlət və vətəndaş cəmiyyətinin quruculuğu ilə nəticələndi.

1994-cü ildə "Əsrin müqaviləsi" adı altında tarixə daxil olan sənədin imzalanması ilə ölkəmiz öz enerji sektorunda geniş beynəlxalq iştirakın mümkünlüyünü təmin edən və eyni zamanda qonşu dövlətlərlə dost münasibətləri saxlayan ilk postsovet ölkəsi oldu. Məhz bu müqavilə Azərbaycan iqtisadiyyatının inkişafında fundamental element olaraq, azad iqtisadi mexanizmlərin tətbiqinə, ölkəmizin dünya iqtisadiyyatına fəal inteqrasiyasına töhfə verdi.

Ulu Öndər Heydər Əliyevin təməlini qoyduğu yeni inkişaf istiqamətlərindən biri ölkədə innovasiya yönümlü fəaliyyətlərin təşkilindən və inkişaf etdirilməsindən ibarət idi. Bunu 2003-cü ildə "Azərbaycan Respublikasının inkişafı naminə informasiya-kommunikasiya texnologiyaları üzrə Milli Strategiya"nın qəbul olunması və bununla da ölkəmizdə elektron hökumətin yaradılmasının nümunəsində görə bilərik. Dahi siyasətçi Heydər Əliyevin bütün istiqamətlərdə olduğu kimi, bu sahədə də əldə etdiyi uğurlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ardıcıl və uğurla inkişaf etdirildi. Bu fəaliyyətlərin nəticəsidir ki, ölkəmiz 2022-ci ildə BMT-nin Elektron Hökumətin İnkişafı İndeksi (EGDI) reytinqində yüksək qrupa aid edilən 73 ölkə arasında 23-cü yerə sahib olmuşdur.

**Diaqram 1.** Elektron Hökumətin İnkişafı İndeksinin alt indeksləri üzrə Azərbaycanın 2022-ci il üçün göstəriciləri




**Mənbə:** "E-Government Survey 2022. The Future of Digital Government" əsasında müəllif tərəfindən işlənmişdir [3].

Diaqramın məlumatlarından da göründüyü kimi, Azərbaycan bir çox alt indekslər üzrə orta göstəricidən yüksək nəticə göstərmişdir. Məsələn, "İnsan kapitalı" üzrə orta bal 76 olduğu halda, ölkəmizin nəticəsi 79 təşkil edir. Lakin diaqramdan o da bəlli olur ki, bu istiqamətdə hələ inkişaf etdirilməsi xüsusi zərurət kəsb edən sahələr - qərar qəbuletmədə və icra proseslərində vətəndaşların rolunun təşviqini nəzərdə tutan e-iştirakçılıq kimi meyarlar da mövcuddur.

Həmçinin, İKT-nin tətbiqinin genişləndirilməsinın əhəmiyyətini,eləcə də rəqəmsal bacarıqlarda mövcud boşluğun aradan qaldırılması üzrə hökumətin dəstək tədbirlərini əks etdirən beynəlxalq indekslərdən biri də "Rəqəmsal bacarıqlarda boşluqlar İndeksi"dir (Digital skills gap index) ki, Azərbaycan hökümətinin gələcəyə baxışında İKT-nin əhəmiyyəti sub-indeksi üzrə aşaıdakı 2-ci diaqramdan da aydın görə bilərik.

Diaqram 2-dən göründüyü kimi, ölkəmiz bu reytinqdə bir çox inkişaf etmiş ölkələrdən (Estoniya, Yaponiya, Norveç, Birləşmiş Krallıq və s.) öndə olmaqla, hökümət tərəfindən İKT-nin təşviqi üzrə uğur qazanmış ölkələr sırasındadır. Bu o deməkdir ki, Azərbaycan yerləşdiyi əlverişli coğrafi mövqeyindən (regionun enerji mərkəzi, eləcə də Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin mərkəzi olması), zəngin təbii sərvətləri və insan resurslarından səmərəli istifadə imkanlarından istifadə etməklə, yeni sıçrayışlarla inkişaf edə və dünya üzrə İKT sahəsində yeni trendləri tətbiq etməyə tam qadirdir. Şübhəsiz ki, rəqəmsallaşmanın inkişaf etdirilməsi resursları optimallaşdırmaq, emissiyalarıazaltmaq və innovasiyaları dəstəkləməklə yaşıl iqtisadiyyatın formalaşmasında da mühüm rol oynayır. Rəqəmsallaşma və yaşıl iqtisadiyyat arasında əlaqəni elmi cəhətdən aşağıdakı istiqamətlərlə əsaslandıra bilərik:enerji səmərəliliyi; resursların idarə edilməsi; bərpa olunan enerji innovasiyaları; emissiyalar və tullantıların azaldılması və s. [5].

**Diaqram 2.** İnformasiya və kommunikasiya texnologiyalarının (İKT) hökumətin baxışı üçün əhəmiyyəti, 2021.




**Mənbə:** "Digital Skills Gap Index 2021" əsasında müəllif tərəfindən işlənmişdir [4].

Beynəlxalq təcrübənin öyrənilməsi göstərir ki, bütün dünyada "yaşıl iqtisadiyyat"ın stimullaşdırılmasında da əsas rolu hökumətlər oynayır. Bu, təşviq mexanizmləri xüsusilə, yeni texnologiyaların və innovasiyaların hazırlanması və tətbiqi sahəsində daha aydın görünür. Azərbaycanda da bu istiqamətdə əsaslı işlər görülüməkdədir. Belə ki, "təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" prioritetinin "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"indən biri kimi müəyyən olunması onu göstərir ki, ölkəmizin adının neftlə sıx bağlı olmasına baxmayaraq, yaxın gələcəkdə regionda yaşıl enerjiyə keçidi reallaşdırmağı, iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə böyük töhfənin verilməsini hədəfləmişdir [1].

Məlum olduğu kimi, ətraf mühitin sağlamlaşdırılması, alternativ enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi üzrə dövlət orqanları, xüsusilə Heydər Əliyev Fondu genişmiqyaslı tədbirlər həyata keçirir.

Prezident İlham Əliyev iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə "Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan olunması barədə" imzaladığı Sərəncam rəqabətqabiliyyətli iqtisadiyyatın dayanıqlı inkişafı, Azərbaycanın təmiz ətraf mühit və yaşıl artım ölkəsinə çevrilməsi kimi əsas prioritetləri nəzərdə tutur. Bu prioritetlər 2030-cu ilə qədər ölkəmizin bərpa olunan enerji istehsalının payının 30%-ə çatdırılması hədəflərini müəyyənləşdirir. Həmçinin, 1990-cı il səviyyəsi ilə müqayisədə 2030-cu ilə qədər ölkəmizin istixana qazları tullantılarını 35%, 2050-ci ilə qədər isə 40% azaltmaq məqsədi də qarşıya qoyulmuşdur [2].

Belə qənaətə gəlmək olar ki, Azərbaycanda rəqəmsallaşma və "yaşıl iqtisadiyyat"a keçid Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin uzaqgörən siyasətinin və innovasiya yönümlü iqtisadiyyat quruculuğunun təkamülünü davam etdirən, dövlətin dayanıqlı və davamlı inkişafın təmin olunması istiqamətindəki strateji prioritetlərindən biridir.

Zənnimizcə, qarşıya qoyulan hədəflərə çatmaq üçün ilk əvvəl rəqəmsal texnologiyaların iqtisadiyyatın bütün sahələrində tətbiqinin zəruriliyini təşviq edən innovativ şüurun inkişaf etdirilməsi istiqamətində tədbirlər həyata keçirilməlidir. Bunun üçün özəl sektor və QHT-in fəal iştirakı qaçılmazdır. Hesab edirik ki, sözügedən istiqamətdə dövlət-özəl tərəfdaşlığı layihələrinin icrası rəqəmsallaşmanın və yaşıl iqtisadiyyatın inkişafını stimullaşdırmaq üçün effektiv vasitə rolunda çıxış edə bilər. Çünki belə tərəfdaşlıq ümumi dayanıqlı inkişaf məqsədlərinə nail olmaq üçün dövlət və özəl sektorun resurslarının, təcrübəsinin və səylərinin birləşdirilməsinə imkan yarada bilər.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Azərbaycan yaşıl enerjiyə keçid üzrə regionda liderdir. 14.01.2024. URL: https://azertag.az/xeber/azerbaycan_yasil_enerjiye_kechid_uzre_regionda_liderdir___tehlil-2883097

2. "Yaşıl enerji və yaşıl iqtisadiyyat problemləri" mövzusunda beynəlxalq elmi seminar keçirilib. 06.04.2024. URL: https://azertag.az/xeber/yasil_enerji_ve_yasil_iqtisadiyyat_problemleri_movzusunda_beynelxalq_elmi_seminar_kechirilib-2964809

3. E-Government Survey 2022. The Future of Digital Government. URL:https://desapublications.un.org/sites/default/files/publications/2022-09/Annexes%2B%20cover.pdf

4. Digital Skills Gap Index 2021. URL:https://dsgi.wiley.com/wp-content/uploads/2021/10/DSGI-whitepaper.pdf

5. Moşteanu P.R. et al. Digitalization and Green Economy - changes of business perspectives.2020. URL:https://dl.acm.org/doi/abs/10.1145/3416921.3416929

6. Fətəliyeva G. Azərbaycanda rəqəmsal tarnsformasiya -2023 / ETN İqtisadiyyat İnstitutu. Büllüten. Bakı, 2024.